# MƏNALI İNSAN ÖMRÜ: ƏJDƏR HÜSEYNLİ



*Məmməd Əliyev*
*professor*

Hər bir insan özünün yaradıcıdılıq ehtirası, təfəkkür tərzi, duyğu və düşüncələri ilə özlüyündə sahilsiz bir ümmandır. Bəzən ictimai, bəzən də fiziki-bioloji varlıq kimi dəyər verdiyimiz insan maddi, mənəvi dəyərlərin yaradıcısı olub dünyamızı zənginləşdirmiş, yaradıcı əməyi ilə ona ziynət vermiş, yaratdıqlarını gələcək nəsillərə miras qoyub getmişdir...

Belə müdrik, özündən sonra iz qoyub getmək ehtirası ilə alışıb yanan insanlara ana dünyamızın həmişə ehtiyacı olmuşdur. Bu gün onları xatırlamaqla yaradıcı insanın təkrarolunmaz fərdi xüsusiyyətlərini görür, onların davranış, adət və düşüncələrindən, etiqad və inamlarından ibrət götürürük...

Dünya gəldi-gedərdi, son ucu ölümlü, itimlidir!

Ondan heç kim heç nə aparmayıb, bir yaxşı addan başqa!

Özünü dünyaya tanıtdıranlar, iz qoyub gedənlər bir parlaq ulduz kimi şölələnib sönsələr də onlar əbədiyyətə qovuşanlar, əbədi yaşayanlardır...

...Sadə, zəhmətkeş ziyalı ömrü yaşa Əjdər müəllim!

Bütün ömrünü müəllim-filoloq olmaqla atası Məmməd Hüseynov kimi gənc nəslin təlim-tərbiyəsinə həsr edərək mənalı ömür yaşayır. Qazandığı zəngin təcrübə, ədəbiyyatşünaslıq elmimizin sirrlərinə dərindən bələdliyi sayəsində, oxuduqlarını öyrəndiklərini yazıya aldı. Atası Məmməd Hüseynov təkcə müəllim kimi yox, klassik ziyalılarımızdan biri kimi tanınırdı... Vaxtilə görkəmli maarifçi Firudin bəy Köçərlinin bir vaxtlar rəhbəri olduğu Qazax Müəllimlər seminariyasını bitirmiş, Siyəzən rayonuna işləməyə gəlmişdi. Hər şeydən qabaq klassik ədəbiyyatımızın

poetikasına dərindən bələd ziyalı idi. Dərs dediyi gənclərə qarşı tələbkarlığı ilə seçilirdi...

Əjdər müəllim bir ziyalı-vətəndaş məsuliyyəti ilə yaxşı bilir ki, öyrəndiklərini yazıya alması, atasından, sonra isə universitetdə təhsil aldığı illərdə (1961-1966) tanınmış əruzşünas alim Əli Fəhmidən öyrəndiklərini yazıya almasa qloballaşma şəraitində kompüter texnologiyalarından istifadənin tüğyan etdiyi bir dövrdə kim idi «baş sındırıb» özünə «iş açıb» əruzu öyrənən?!

Bütün səyi və qüvvəsi ilə çap etdirdiyi yazılarında bu niyyətini təsdiqlədi. Dönə-dönə Əkrəm Cəfərin Azərbaycan əruzu haqqında əsərini, 1960-cı illərdən bəri onun mətbuatda, elmi jurnallarda çıxan məqalələrini oxudu, onlara münasibətini bildirdi... Açığını deyək ki, heç kimin cürət edib girişmədiyi bir işə imza atdı, uzun illər klassik Azərbaycan poeziyasının istər orta əsrlər, istərsə də XX əsrə qədərki nümayəndələrini istisna olunmadan analitik süzgəcdən keçirdi, nəinki əruz elminin mahir bilicilərindən biri oldu, həm də bəzi bəhirlərin yeni variant və bölümlərini aşkarladı.

Əjdər müəllim Ə.Cəfərin vaxt və imkan tapıb aşkar edə bilmədiyi münsərih bəhrinin daha bir növünü (şərti olaraq Əliqulu Qəmküsar münsərihi adlandırılmışdır), aşkar etməyə nail oldu. Bu növ Ə.Qəmküsarın 1959-cu ildə nəşr olunmuş «Seçilmiş əsərləri»ndəki «Gücsüz edir» şeiri idi. Həmin şeirin misra qəlibi yeni bir növ kimi onun diqqətini cəlb edir, məlum olur ki, həmin ölçü Ə.-Cəfərin «Əruzun nəzəri əsasları və Azərbaycan əruzu» adlı məlum kitabında yoxdur. Bu münsərih bəhrinin bu vaxta qədər aşkarlanmayan yeni növü idi: müstəfilün fəUlün, müstəfilün fəUlün qəlibi idi. Məlum olur ki, şairin həmin satirik şeirində münsərih bəhrinin daha iki növ variantı işlənmişdir: son təfiləsi fəUlü və fəUlinlə bitən qəliblər.

Əjdər müəllim araşdırmalarını davam etdirərəkən milli əruzumuzda daha yeni bir qəlib növü aşkar etdi. Bu Qazi Bürhanəddin «Divanı»nda aşkar edilmiş "Qanısın, qanısın, qanısın" şeiri idi. Həmin şeir mütədarik bəhrinin əruz-şünaslığımıza zəmanəmizə qədər məlum olmayan fəilün, fəilün, fəilün qəlibləri əsasında qurulmuş, «rəddül-əcəz» şəklində yeni növündə idi.

Mütədarikin fA'ilün, fA'ilün, fA'ilün qəlibli növü məlum olsa da, onun yuxarıda göstərdiyimiz növü bu vaxta qədər məlum deyildi.

Şeirə nəzər salaq:

Fə'ilün, fə'ilün, fəilün.
Qanısın, qanısın, qanısın,
Canısın, bu tənin canısın,
Bu yürək qanısın canısux
Canısux bu yürək, qanısın.
Nə şəkər kanısın totağı
Totağı nə şəkər kanısın.
Xanısın bu könül Sarının.
Bu könül şarının xanısın.
Yusifi-sanısın, ey bəgim,
Ey bəgim, Yusifi-sanısın
(Qazi Bürhanəddin «Divanı», B., 1988, s.153)

Bu yenilik, yeni «kəşf» idi. Əjdər müəllimin uzun illər boyu apardığı müşahidələrin, müqayisələrin nəticəsində əldə edilmişdi. Böyük alim Əkrəm Cəfər özündən sonra gələn gənc ədəbiyyatşünaslara vəsiyyət etmişdi:

«Azərbaycan əruzunun bəhrlərinə, qəliblərinə, təfilələrinə dair müəyyən etdiyimiz rəqəmləri gələcək tədqiqatçılar azaltmayacaqlar. Lakin gələcəkdə alimlər bizim rəqəmləri artıra bilərlər. Bu da iki yolla ola bilər: ya keçmiş irsdən bizim görmədiyimiz poetik abidələrdən yeni faktlar taparlar, ya da gələcək şairlər Azərbaycan əruzunun yeni şəkillərini yaradarlar».

Əjdər müəllim uzun illərin bahasına milli əruzumuzun öyrənilməsinə həsr etdirdiyi "Əruzu necə öyrətməli., (B, 2004) " Əruz testləri (B., 2006) kitablarının, "Mütədarik növünün bir bəhri haqqında" ("Kredo" 14 dekabr 2013), "Əruzun izi ilə" (" Təhsil problemləri" 24 aprel , 2014), "Əruz vəzninin öyrənilməsində bəzi çətinliklər və onların aradan qaldırılması yolları" (Təhsil problemləri 24 iyun 2014), "Müzare bəhrinin növləri haqqında" (Bütöv Azərbaycan ,02 fevral 2017), "İlk anadilli qəzəllimiz", 13 sentyabr 2017", "Araşdırılmalı məsələ..." (Bütöv Azərbaycan 23 noyabr, 2017), "Əruzun öyrənilməsinin strukturu haqqında"

(Azərbaycan müəllimi, 16 mart, 2018), "Təfilənin fonopoetikasına dair" (Bütöv Azərbaycan, 18 0ktyabr 2018) və s. kimi elmi , elmi-metodiki təmayüllü dəyərli əsərlərin müəllifidir.



Əjdər müəllimin yüksək elmi səviyyədə yazdığı, təfilənin fonopoetikasına dair adlı məqaləsi xüsusi diqqətə layiqdir. Həmin məqaləni bir alim zəkası ilə əruzşünaslığın mürəkkəb struktur nüvəsini təşkil edən , bu elmin əlifbası olan təfilənin öyrənilməsinə həsr etmişdir. Belə elmi şərhə nə orta əsr müəlliflərinin, nə də XX əsr nəzəriyyəçilərinin əsərlərində rast gəlmirik. Məqalədə hər şeydən əvvəl belə bir fakt qabardılır ki, milli əruzumuz ərəb-fars əruzundan fərqli fonomorfoloji prinsiplərə əsaslanır, çünki, bütövlükdə ümumtürk əruzu iltisaqı dillərin fonetik , morfoloji prinsiplərinə - ahəng qanuna əsaslanır.

Əjdər müəllim digər araşdırıcılardan fərqli olaraq təkcə təfilənin fonomorfoloji strukturunun texniki cəhətlərini, (cüz, rükn və s.) öyrənməklə kifayətlənmir, dilimizdə açıq və qapalı, həmçinin uzun və qısa hecaların ritm yaratmaq funksiyasını izləyir, bu səbəbdən də təfilələrin fərqli struktur nüvəsinin təşkili, hecaların simmetrik və asimmetrik yerləşməsinin tənasübünü diqqətlə izləyərək yazır: " Təqdim olunan təfilələrin transkripsiyası oxucuya bəzən qeyri-adi görünür... Bu qeyri-adi görünüş təfilənin düzgün elmi transkripsiyası ilə bağlı olub onun səs tərkibinin yazıda tam şəkildə əks edilməsi üçün elmi əsaslarla tətbiq olunan xüsusi yazı üsuludur".

Təfiləyə belə elmi yanaşma obyektiv və isbata ehtiyacı olmayan nəticədir. Təfilənin düzgün elmi transkripsiyasını isə Ə.Cəfər (onların sayı 47 olmaqla, 270 variantda birləşərək şeirimizdə işlənmişdir- M.Ə) ilk dəfə işləyib, hazırlamışdır. Təfilə qəlib və ya şablondur, onun heç bir lüğəvi mənası yoxdur, o bölüm ölçüləri olub hecaları bir-birindən fərqləndirmək, şeirdə xüsusi bir ahəng, melodiya yaratmaq üçündür. Təfilənin evfoniyasının yaratdığı estetik duyum onun xüsusi simmetriya əsasında (asimmetrik təfilələrin misralarda təkrarlanması özü də simmetriyaya tabedir. M.Ə) təkranması ilə sözün emosional -semantik çalarlarının yaratdığı məzmunla bağlıdır. Təfilənin mexanizmi " işə salındıqda" heca öz yerini oxucuya xoş gələn musiqili, tərənəli , avazlı ahəngə verir.

Şeirin ritmi - təfilənin fonopoetik düzəni onu təşkil edən nitq vahidlərinin birləşməsindən ibarətdir. Təfilələrin misra boyu düzülüşü onların qarşılıqlı tələbi, funksional vəzifəsi ilə bağlıdır. Ona görə də təfilənin mürəkkəb formal struktrunun funksional təhlil müstəvisinə çıxarılması öz həllini gözləyir.

Əruzşünas Əjdər Hüseynlinin gələcəkdə bu işə girişməsi bütovlükdə əruzşünaslıq elmimiz üçün çox gərəkli olardı... Nə orta əsr müəlliflərinin ( N.Tusi, Ə.Nəvai, V.Təbrisi, R.Vətvat, Q, Razı, Balur və s), nə də sonrakı dövr müəlliflərinin əsərlərində təfilənin funksional təhlil müsəvisində öyrənilməsinə rast gəlinməmişdir. Odur ki, bu işdə Əjdər müəllimin köməyinə ehtiyac vardır...

Əjdər müəllim mənalı ömrünün 80-ci illərini əvvəlki qayda, həyat sevinci, ona xas olan nikbinliklə yaşamaqdadır. Həmişə olduğu kimi, heç kimdən xeyirxahlığını əsirgəmir, özünün ürəkdən gələn səmimiyyəti, mehribanlığı, sadə və təvəzökar xasiyyəti ilə seçilir. Gecə-gündüz kitablardan, mütaliədən əl çəkmir, elmimizin, təhsilimizin ağsaqqalı kimi özünə qarşı çox tələbkardır, ürəyi həyat eşqilə , yazıb yaratmaqla çırpınır. Bir an da olsun klassik poeziyamızın sirlərini öyrənmək, bu sahədə bildiklərinin miqyasını genişləndirmək işindən kənarda qalmır, yaxşı bilir ki, onun bugünki, qiymətli bir kəlməsi gələcəkdə daha qat-qat qiymətli olacaq, sonrakı nəsillərə örnək olacaq .

Qoy belə olsun!

Yaxşı deyib atalar: niyyətin haramənzilin ora!

60-cı illəri yaradıcı ziyalısı bugün ki, gəncliyə qoy örnək olsun!

Həyat sevinci ondan əksik olmasın!..

*2021*